





# Seçkilərin yüksək səviyyədə, demokratik və şəffaf keçirilməsi üçün möhkəm hüquqi baza mövcuddur

Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən regionlarda dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslara başlanılıb. Kurslar Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında təşkil olunub.

AZƏRTAC xəbər verir ki, fevralın 19-da Gəncə şəhərini əhatə edən 4 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birində 3 gün davam edəcək kurslara start verilib.

Kurslarda MSK-nın üzvləri, məsul işçiləri, DSK sədrləri ilə yanaşı, rayon icra hakimiyyətlərinin səlahiyyətli şəxsləri, rayon prokurorları, məhkəmə sədrləri və polis idarələrinin rəisləri mühazirələrlə çıxış edirlər.

38 saylı Nizami II (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının (DSK) inzibati binasında təşkil edilmiş kurslara 37 saylı Nizami I və 38 saylı Nizami II dairə seçki komissiyasının üzvləri və hər dairəyə daxil olan 24 məntəqə seçki komissiyasının sədrləri, eləcə də üzvləri qatılıblar. Kursların ilk günü 37 saylı Nizami I (Gəncə) seçki dairəsinin sədri Faiq Hacıyev və 38 saylı Nizami II (Gəncə) seçki dairəsinin sədri Tahir Ələkbərov "Seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və s. bu kimi istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması" mövzusunda çıxış ediblər.

Kurslarda çıxış edən MSK-nın baş məsləhətçisi Sevil Əliyeva Azərbaycan Respublikasının Seçki Məcəlləsi, xüsusən də bu məcəllənin 7-ci fəslində təsbit olunan seçkilərin (referendumun) hazırlanması və keçirilməsi zamanı aşkarlıq hallarından danışıb. İştirakçılara seçki komissiyalarının fəaliyyətindəki aşkarlıq, müşahidə aparılmasının prinsipləri, müşahidəçilərin hüquq və vəzifələri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri və beynəlxalq (xarici) müşahidəçilərin qanunvericilikdə nəzərdə tutulan fəaliyyət imkanları haqqında ətraflı məlumat verilib.

Sonra Gəncə şəhəri Nizami Rayon Polis İdarəsinin rəisi Ədalət Sadıqov seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu, onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri haqqında geniş məruzə ilə çıxış edib.

Qeyd olunub ki, polisin seçki zamanı vəzifəsi ictimai asayişi qorumaq, baş verən pozuntuları qanuni qaydada sənədləşdirmək, seçki məntəqələrinin mühafizəsini təşkil etməkdən ibarətdir. Hər bir polis əməkdaşının bütün xidmət sahələri üzrə vəzifələri müəyyənləşdirilib. Bu məqsədlə seçici siyahılarının təkmilləşdirilməsi istiqamətində qeydiyyat və şəxsiyyət vəsiqəsi bölməsi ilə sahə rəislərinin qarşılıqlı əlaqəsi təşkil olunub, şəxsiyyət vəsiqələrinin verilməsi, dəyişdirilməsi, eləcə də qeydiyyat məsələlərinin maneəsiz həlli təşkil edilib.

Vurğulanıb ki, qarşıdan gələn Azərbaycan Respublikası Prezidentinin seçkilərində daxili işlər orqanlarının və digər hüquq mühafizə orqanlarının üzərinə düşən əsas vəzifələrdən biri də ölkədə mövcud olan sabitliyi qoruyub saxlamaq və təmin etməkdir. 2018-ci il aprel ayının 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə dair 2018-ci il fevralın 9-da Daxili İşlər Nazirliyində tədbirlər planı hazırlanaraq yerlərə göndərilib və icrasına başlanılıb.

Sonda tədbir iştirakçılarına tədbirlər planında nəzərdə tutulan məsələlərin həllinə dair, həmçinin keçirilən seçki prosesinə uyğun olaraq polisin üzərinə düşən əsas vəzifələr - ictimai asayişin, ictimai qayda və qanunun təmin edilməsi ilə bağlı geniş məlumat verilib.

* * *

114 saylı Şəki kənd birinci seçki dairəsində keçirilən kursun ikinci günü əvvəlcə iştirakçılara seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılmasında yerli icra və bələdiyyə qurumlarının rolu barədə geniş məlumat verilib.

Məruzə ilə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rafail Mənafov bildirib ki, ölkəmizdə dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Xalqın iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən seçkilərdə, həmçinin referendumlarda təzahürünü tapır. Azərbaycan dövləti ölkə vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə hər zaman təminat verir.

Sonra Şəki Şəhər-Rayon Polis Şöbəsinin xidmət üzrə rəis müavini Vüqar Xəlilov "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu" mövzusunda məruzə ilə çıxış edib.

Seminarda dairə seçki komissiyasının sədri Məharət Məmmədov məntəqə seçki komissiyalarının sədrlərinə seçici siyahıları ilə işin aparılması qaydası barədə metodiki məlumatlar verib.

* * *

Seçkilərin hazırlanması və keçirilməsi zamanı aşkarlıq mühüm prinsiplərdən biridir. Şəffaflığa xidmət edən bu meyarın təmin olunması məqsədilə seçki kampaniyası zamanı müxtəlif metod və qaydalardan, fərqli müşahidə formalarından istifadə olunur. Bu fikirlər fevralın 20-də 111 saylı Zaqatala-Balakən seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün təşkil edilən seçki hüququ üzrə ixtisaslaşmış kursun ikinci gününün tədris məşğələsində səsləndirilib.

Seminarda dairə seçki komissiyasının sədri Söhrab İsmayılov çıxış edərək təlimlərə dairənin tərkibinə daxil olan 44 seçki məntəqəsinin sədrlərinin və dairə seçki komissiyasının üzvlərinin cəlb edildiyini diqqətə çatdırıb.

Mərkəzi Seçki Komissiyasının əməkdaşları Afiq Alıyev və Bəxtiyar Ağalarov iştirakçılara seçki prosesinin seçicilərə çatdırılmasında aşağı seçki komissiyalarının vəzifələri, seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələrinin praktiki tərəfləri və digər məsələlər barədə geniş məlumat veriblər. Bildirilib ki, öz mütərəqqiliyi ilə diqqət çəkən Azərbaycan Respublikasının Seçki Məcəlləsi istər yerli, istərsə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı və fəaliyyəti üçün geniş imkanlar açır. Seçki prosesinin müşahidəsi, bir qayda olaraq, müşahidəçinin öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında aparılır. Seçki komissiyalarının iclaslarında, seçki sənədləri və səslərin hesablanması ilə əlaqədar işin gedişində KİV nümayəndələrinin də iştirak etmək hüququ var.

Fevralın 20-də Şəki-Zaqatala bölgəsinə daxil olan digər rayonlarda da dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşmış kurslar davam edib.

* * *

İxtisaslaşdırılmış kursların tədris cədvəlinə uyğun olaraq fevralın 20-də 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının üzvləri və dairənin əhatə etdiyi 63 məntəqə seçki komissiyasının sədrləri üçün məşğələ keçirilib.

Dairə seçki komissiyasının inzibati binasının iclas zalında təşkil olunan tədris məşğələsində rayon polis idarəsinin rəisi Şahin Mirzəyev "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rol və seçki komissiyaları ilə qarşılıqlı əlaqələri", rayon məhkəməsinin sədri Etibar Hümbətov "Seçki hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüquqlarının qorunması mexanizmləri", dairə seçki komissiyasının sədri Hüseyin Rəcəbov "Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili" mövzularında məruzələrlə çıxış edib, sualları cavablandırıblar.

Vurğulanıb ki, ölkəmizdə seçkilərin yüksək səviyyədə, demokratik və şəffaf keçirilməsi üçün möhkəm hüquqi baza mövcuddur. Azərbaycan Respublikasının Konstitusiyasında, Seçki Məcəlləsində bu hüquqlar beynəlxalq normalara uyğun təsbit olunub.

Tədris məşğələsində seçkiqabağı dövrdə təşviqat tədbirləri iştirakçılarının təhlükəsizliyinin təmin olunması, seçicilərlə görüşlərin keçiriləcəyi yerlərdə ictimai asayişin qorunması, eləcə də seçki sənədlərinin daşınması və mühafizəsi barədə qanunvericiliyə uyğun tədbirlərdən danışılıb. Habelə hər hansı müraciətin operativ surətdə həlli istiqamətində qanunvericilikdə tələb olunan qaydalar geniş şərh edilib.

Məşğələ zamanı məntəqə sədrlərinə seçkilərə hazırlığın gedişi barədə ətraflı məlumat verilib, səslərin hesablanması, nəticələrin rəsmiləşdirilməsi və sair qaydalar izah olunub.

* * *

106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasında seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslarda dairə seçki komissiyasının üzvləri və dairənin əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri iştirak edirlər.

Kursun ikinci günündə MSK-nın nümayəndələri Elçin Nəsirli və Fərman Ələkbərovun "Seçki prosesində kütləvi informasiya vasitələrinin rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri", rayon polis şöbəsinin rəisi Şirzad Əsgərovun "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu, onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri", 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasının sədri İlqar Hüseynovun "Azərbaycan Respublikası Prezidentinin seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə və çıxışlarda prezident seçkilərinə hazırlıq məsələlərinə geniş yer ayrılıb, seçkilərin azad, demokratik və şəffaf keçirilməsi məqsədilə bütün şəhər və rayonlarda dairə seçki komissiyaları üçün hər cür şəraitin yaradıldığı bildirilib. Həmçinin seçkilərdə kütləvi informasiya vasitələrinin rolu, seçicilərin hüquqlarının qorunması, seçkiqabağı təşviqatın aparılmasına normal şəraitin yaradılması və digər məsələlərdən də geniş bəhs olunub.

106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasının sədri İlqar Hüseynov bildirib ki, dəqiqləşdirilmiş son məlumata görə, 37 seçki məntəqəsi üzrə 47 min 255 seçici qeydiyyata alınıb. Onlardan 7-nin yaşı 100-dən yuxarıdır, 143 nəfər isə səsverədə ilk dəfə iştirak edəcək gənclərdir. Seçki məntəqələri lazımi texniki avadanlıqlar, metodiki vəsaitlər, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub.

Qeyd edək ki, 105 saylı Tovuz, 107 saylı Qazax, 108 saylı Ağstafa, 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd və 100 saylı Şəmkir-Daşkəsən seçki dairələri dairə seçki komissiyalarında keçirilən kurslarda da bir sıra qanunvericilik aktları, təlimatlar barədə ətraflı məlumatlar verilib.

* * *

İxtisaslaşdırılmış kursların ikinci günündə 34 saylı Xətai ikinci seçki dairəsi dairə seçki komissiyasında keçirilən təlim-məşğələdə çıxış edən komissiyanın sədri Rafael Mehdiyev bildirib ki, bu kurslar Azərbaycan Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən aşağı seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi məqsədilə təşkil edilib.

Qeyd edilib ki, 34 saylı Xətai ikinci seçki dairəsində 36 məntəqə və 43 min 427 seçici var. Artıq hər bir seçici qeydiyyatdan keçib, məntəqə seçki komissiyaları təşkil olunub. "Maarifləndirmə kursları seçkilər zamanı hər hansı problemin yaranmasının qarşısını almaq məqsədilə təşkil edilib. Təlimlərdə Xətai Rayon Məhkəməsinin, rayon prokurorluğunun və polis idarəsinin, həmçinin Mərkəzi Seçki Komissiyasının nümayəndələri iştirak edirlər. İnanırıq ki, səsvermə prosesində heç bir problem olmayacaq və seçkilərin tam şəffaf keçirilməsini təmin edəcəyik", - deyə komissiya sədri vurğulayıb.

Xətai Rayon Prokurorluğunun əməkdaşı Fəqan Mahmudov seçki hüquqpozmaları, seçki prosesinə müdaxilə zamanı İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan caza tədbirləri ilə bağlı iştirakçıları məlumatlandırıb.

Qeyd edək ki, bu cür kurslar 33 saylı Xətai birinci, 35 saylı Xətai üçüncü, 36 saylı Xətai dördüncü seçki dairələri dairə seçki komissiyalarında da keçirilib. Məntəqə seçki komissiyaları sədrlərinin və üzvlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, seçki hüququ ilə bağlı biliklərin artırılması baxımından kursların əhəmiyyəti yüksək dəyərləndirilir.

* * *

27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar davam edir.

Dairə seçki komissiyasının sədri Nadir Əjdərov Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil olunan kursların əhəmiyyətindən danışıb. Bildirilib ki, 51 min 5 seçicisi olan dairənin ərazisində 39 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Şəffaflığın təmin edilməsi məqsədilə dairənin on məntəqəsində veb-kameralar quraşdırılıb. Seçki məntəqələrində komissiya üzvlərinin normal fəaliyyəti üçün hər cür şərait yaradılıb.

N.Əjdərov diqqətə çatdırıb ki, seçki hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüquqlarının qorunması mexanizmləri, seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri, rəsmi sənədlərin daşınması və təhlükəsizliyinin təmin edilməsi, eləcə də asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu, səslərin hesablanması, nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkilinə dair maarifləndirici seminarlar və təlimlər keçirilir. Kurslarda seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqata şəraitin yaradılması, bildirişlərin seçicilərə çatdırılması sahəsində yerli icra və bələdiyyə qurumlarının rolu, onların komissiyalar ilə səmərəli əlaqələrinin qurulması mövzularına xüsusi yer ayrılıb.

Sonra Sabunçu rayon prokurorunun köməkçisi Ülviyyə Şükürovanın "Seçki subyektləri, seçki hüquqlarının pozulmasına görə məsuliyyəti nəzərdə tutan qanunvericilik aktları, normaları və məsuliyyət növləri" mövzusunda məruzəsi dinlənilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

* * *

31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar davam edir.

Dairə seçki komissiyasının sədri İlham Bayramov bildirib ki, 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə 32 seçki məntəqəsi var. Bu məntəqələrdə 39 min 220 seçici qeydə alınıb. Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatlarına uyğun olaraq hazırlıq tədbirləri həyata keçirilir, məntəqələrdə bütün lazımi şərait yaradılıb.

MSK-nın katibi Mikayıl Rəhimov bildirib ki, aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ölkəmizdə çox əlamətdar ictimai-siyasi hadisədir. Seçkilərin tam demokratik şəraitdə və şəffaf keçirilməsi üçün bütün lazımi tədbirlər görülür. Bunun üçün hər cür imkan var və bu imkanlardan səmərəli şəkildə istifadə etməliyik.

Sonra seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri, seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu, onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri, Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili məsələləri kurs iştirakçılarının diqqətinə çatdırılıb.

Kurslarda seçkilərə hazırlıq prosesində dairə və məntəqə seçki komissiyalarının üzərinə düşən vəzifələr barədə ətraflı məlumatlar verilir, iştirakçıların sualları cavablandırılır.

Azərbaycan.- 2018.-21 fevral.- S.5.